Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
" İctimai və dövlət maraqlarının müdafiəsi"

# Mənfi rolların şəkər kimi ifaçısını şəkər apardı

## Muxtar Maniyev "bu dünyada heç kim başqasının yerini tuta bilməz" deyirdi

**Azərbaycanın kino və teatr aləmi daha bir aktyorunu itirdi. Xalq artisti Muxtar Maniyev həyata vida dedi. 150-dən çox filmdə irili-xırdalı rollar oynayan, teatr səhnəsində rəngarəng rollarla tamaşaçıların rəğbətini qazanan aktyor uzun müddət idi ki, şəkərli diabetdən əziyyət çəkirdi. Ayaqlarının hər ikisi amputasiya edilmişdi. Qaynar, hay-küylü həyata alışan aktyor birdən-birə sakitliyə və qəmginliyə qapanmışdı. "Son vaxtlar çox zəifləmişdi. Səhərə yaxın yuxudan qalxdı, narahat olduğunu dedi. İkicə dəqiqə keçmədi, qəfildən gözlərini yumdu"- deyə həyat yoldaşı aktyorun son anlarını göz yaşları içərisində danışıb.**

### GEOLOQ OLMALI İDİ

Muxtar Maniyev bir neçə il əvvəl "Kaspi"nin də qonağı olmuşdu. Gəncliyindən, onu aktyorluğa gətirən həvəsdən, sənət yollarında rastlaşdığı çətinliklərdən, qazandığı şöhrətdən danışmışdı. "Aktyor olmaq üçün qarşınızda kimin obrazı olub?"- sualına "Heç kim deyə bilməz ki, kimisə təqlid eləmişəm. Bir az böyük çıxsa da, deməliyəm ki, bu, məndə anadangəlmədir. İndi istedadı olan da, olmayan da deyir ki, bu, məndə Allah vergisidir. Sən bilmirsən ki, Allah vergisi insana necə gəlir. Başqasının beyninə yox, ancaq sənin beyninə gəlir. Çünki çalışqanlıq olmalıdır. Daim işləyəsən, düşünəsən və bunun ətrafında fırlanasan" cavabını vermişdi.

M.Maniyev sənətə ilk gəldiyi vaxtlardan söhbət açaraq, aktyorluğa başqalarına nisbətən bir qədər gec başladığını, uşaq vaxtı özfəaliyyət dərnəklərinə getdiyini, sənətlə bağlı xəyallar qurduğunu, hərbi xidmətdən qayıdandan sonra isə sənət aləminə gəldiyini söyləyirdi: "Əsgərlikdən qabaq Neft və Kimya İnstitutunda oxumuşam. Geoloq olmalı idim. Hərbi xidmətdən qayıdandan sonra sənədlərimi İncəsənət İnstitutuna verdim. Valideynlərim bağda idilər, odur ki, xəbərləri olmadı. Bəxtimdən imtahanları Ədil İsgəndərov qəbul edirdi. İnstituta daxil oldum. İlk gündən ünsiyyətimiz yarandı. O, bu sənəti mənə öyrətdi. Məni hətta birinci kursda oxuyanda "Azdrama"ya işə qəbul elədi. Sonra öz yanında aktyor sənəti kurslarına gətirdi. Birinci kursu qurtaranda - 1959-cu ildə Moskvaya dekadaya getdik. Gənc aktyor kimi bu, mənim həyatımda böyük hadisə idi". Muxtar Maniyev səhnədə Sidqi Ruhulla, Mirzəağa Əliyev, Hüseyn Razi, Əj-dər Sultanov, Mərziyyə Davudova, Mirvari Novruzova kimi sənətkarları görür, bəziləri ilə tərəf müqabil olur. Sənətin sirlərini onlardan öyrənir: "Biz o kollektivlə hər gün bir yerdə idik. Gecə-gündüz çalışır, qastrollara gedirdik. Ədil müəllimin tələbəsi olduğumuz üçün dərslərimizin çoxunu Dram Teatrında keçirdik. Dərsdən sonra səhnəyə çıxmaq üçün teatrda qalırdıq. Bu, öyrənmək üçün çox yaxşı təcrübə idi"- deyə aktyor xatırlayırdı.



### YENİ AMPLUADA AKTYOR

Muxtar Maniyev institutun birinci kursunda oxuyanda "Koroğlu" filmində dəmirçi oğlu Polad rolunda çəkilib. Kinorejissor Hüseyn Seyidzadə həmin filmə aktyor axtarışı üçün instituta gələndə, Muxtarı elə ilk baxışdan seçib. Qəhrəmanlıq dastanı əsasında çəkilən filmdəki rolundan sonra tənqidçilərin onun haqqında söylədikləri fikirlər sırasında "kinoya yeni nəfəs, yeni ampluada aktyor gəlib" sözləri də yer almışdı. M.Maniyev kinoda ilk rolunu belə xatırlayırdı: "Birinci kursu qurtarandan sonra kinostudiyada "Koroğlu" filmini çəkməyə hazırlaşırdılar. Məni at sürməyə çağırdılar. Məşqlərdə iştirak elədim. Atçılar da, məşqçilər də Gürcüstandan gəlmişdilər. Mən orda İran səfirini müşayiət edən iki çapardan birinin roluna çəkiləcəkdim. Biz hər gün gedib "Domsovet"in qabağında üç saat məşq edirdik. Yaxşı at sürməyi öyrəndim. Biz atları qatara mindirib Yevlaxa, ordan da Xankəndinə getdik. Orda Həmzənin cırıq paltarda toya gəlməsi səhnəsi çəkilirdi. Həmzə rolunu oynayan aktyor gəlməmişdi. Tələsik onun sözlərini vərəqdə mənə verdilər. Hafizəm yaxşı idi. Tez əzbərlədim. Bu epizoda da çəkildim. Beləcə, kinoda çəkilişlərim başladı".

Aktyor daha sonra "İnsan məskən salır", "O qızı tapın", "Bizim Cəbiş müəllim" filmlərindəki rolları ilə özünü kino aktyoru kimi təsdiqləyir. "Bəxt üzüyü"ndə Zırpı, "Ölsəm, bğışla" filmində Seyidrza, "Bəyin oğurlanması" filmində Qonaq rolları, həmçinin "Bakıda küləklər əsir", "Bizim Cəbiş müəllim", "Sizi dünyalar qədər sevirdim" və s. filmlərdə aktyor müharibə dövrünün müxtəlif xarakterli insanlarının maraqlı obrazlarını yaradır. Muxtar Maniyev həm teatr, həm də kino aktyoru kimi çalışdığından incəsənətin bu iki sahəsi arasındakı fərqli və oxşar cəhətləri gözəl bilirdi: "Hər ikisi çətin və bir-birindən çox fərqli sənətlərdir. Teatr aktyoru bir rolun üstün-də 5-6 ay işləyir. Sonra bir tamaşanı 1-2 il, elə tamaşalar da var ki, 20 il oynayırlar. 5-6 ay ərzin-də oynadığı rolu təkmilləşdirmək imkanı var. Kino aktyorunun işi isə istehkamçının işinə bənzəyir. O, bir dəfə səhv edir. Çəkildi, qurtardı. Onu dəyişdirməyə, təkmilləşdirməyə heç bir imkanın yoxdur. Kino aktyoru snayper olmalı, düz onluğu vurmalıdır. Ona görə kinoda çəkilmək çox çətindir. Bunun fərqini bilməyən adamlar bu saat kinoda dalbadal çəkilirlər. İndi rejissorlar gənclərdir. Mən ssenarini oxuyuram. Xoşuma gəlirsə, çəkilirəm, gəlmirsə, razılıq vermirəm".

### ƏSAS ODUR Kİ, ROLUN YADDA QALSIN

Bütün həyatının və yaradıcılığının məşəqqətlərdə keçdiyini deyən Muxtar Maniyev sənətə münasibətdə bir qədər mühafizəkar idi: "Aktyor təqaüdə getməz, səhnədə ölər"- deyirdi: "Mən aktyoru çayda üzən təzə balığa bənzədirəm. Çaydan qırağa atdınmı, o, ölümə məhkumdur. Onları teatrdan çıxarmaq, sənətdən ayırmaq olmaz. O sənətlə nəfəs alır, onun qədrini bilmək lazımdır".

Muxtar Maniyev teatrda və kinoda yüzdən çox rol oynamasına baxmayaraq, tamaşaçılar onu daha çox mənfi rolların ifaçısı kimi yadda saxlayblar. Bu barədə səslənən fikirləri özü də inkar etmirdi: "Mənfi rolları oynamaq daha çətindir. Bu, tamaşaçının zövqündən asılıdır. Mənfini də qiymətləndirir, müsbəti də. Əsas odur ki, oynadığın rol kino tarixində qalsın". "Sevmədiyiniz obrazı oynamısınızmı?" sualına isə aktyorun orijinal cavabı vardı: "Sevmədiyim obrazı öz əsarətim altına salmışam. O obrazda nə demək istədiyimi tapmaq istəmişəm. Aktyor sənətinin birinci şərti nə demək istədiyini bildirməsidir. Aktyorlar var, saatlarla güzgünün qarşısında dayanıb öz-özlərinə danışırlar. Elə aktyor var ki, qışqıra-qışqıra iki saat şeir oxuyur, bir misra da adamın ya-dında qalmır. Elə evdə övladınla da, yoldaşınla da, qonşunla da danışanda nə danışdığına fikir verməlisən. Aktyor da var ki, bir cümləsi ilə tamaşaçının qəlbinə yol tapır". Muxtar Maniyev aktyorluq sənətinə vərdiş kimi baxmırdı. Ona görə, obraz yaratmaq istedadlı adamların işi idi: "Aktyorluq sənəti ilə məşğul olan adamın vərdişi olmamalıdır. Çünki o, təzələşə bilməz. İnsanın vərdiş etdiyi müxtəlif hərəkətlər bir rol üçün yarayar. Amma sonrakı rollar üçün düz gəlməz. Aktyor istər teatrda, istərsə kinoda bir rol oynamağa başlayanda gərək bütün şeyləri unudub xam torpaq, təmiz vərəq olsun. Ona görə də aktyor az yetişir. Axı aktyorun nə fırça, nə qələmi, nə tu-şu var. Hər şeyi ancaq öz hisslərinin hesabına edir".

Muxtar Maniyev şöhrətin zirvəsinə asanlıqla yüksəlməmişdi. Sənətin daşlı-kəsəkli yollarından keçmiş, maneələrlə qarşılaşmışdı. Haqsızlıqlar çox görmüşdü. Sənət aləmində rastlaşdığı səmimi olmayan münasibətlər onu çox incidirdi: "Bizim incəsənətdə ümumiyyətlə, istedadlı adama yer yoxdur. Hamı bir-birinin başından vurur. Onların içində bir, ya da iki nəfər adam tapmaq olar, desin ki, bu istedadlıya kömək etmək lazımdır. Axan suyun qabağını təmizləmək lazımdır ki, axıb getsin. Amma mənim qabağıma həmişə cürbəcür maneələr qoyublar. Özü də balaca adamlar tərəfindən qoyulmayıb bu maneələr. Balaca uşağa nə var ki, saymazsan keçərsən. Bu maneələr yüksək səviyyəli adamlar tərəfindən qarşıma qoyulub". Qarşılaşdığı maneələr bəzən oynamaq istədiyi, hətta təsdiq olunduğu rolları əlindən alıb. Bu anları yaşamaq nə qədər əzablı olsa da, dözüb, tab gətirib: "Filmlərdə mənim əvəzimə başqa adam - özü də məndən qat-qat zəif adam çəkirdilər. Hətta bir dəfə iş o yerə gəlib çatmışdı ki, demişdilər filmin direktorunu çəkin, Muxtar Maniyevi çəkməyin. Mənim təsdiq olunduğum rola Səməndər, Şahmar, Həsən Məmmədov çəkilib. Rolum bədii şurada təsdiq olunub. Qonaqlığın da eləmişəm. Səhər gəlib görürəm ki, başqa adam çəkilib. Bunlar ürəyə zərbədir. Bu zərbələrin hamısını yaşamışam".

Muxtar Maniyev xəstələndiyi, ayağının səhnədən, kino meydanlarından çəkildiyi günə qədər sənətdən ayrılmayıb. Amansız xəstəlik yaxasını tanıyanda daim işləməyə alışan aktyoru yatağa möhtac edib. Təsəllisi isə Azərbaycanın kino və teatr tarixinə bəxş etdiyi, tamaşaçıların yaddaşında əbədiləşən rolları olub. Aktyoru ölümsüz edən, ürəklərdə və xatirələrdə yaşadan da budur. O, özü də sənət aləmində hər kəsin öz yerinin olduğunu bilirdi. "Bu dünyada heç kim başqasının yerini tuta bilməz. Hər kəsin öz yeri var". Bu da onun sözləri idi...

**Təranə Məhərrəmova**



***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***